# Əli bəy Hüseynzadənin son yadigarı

## Və ya "yaxşı ki, məni sevən bu qədər insan var" deməyi haqq edən bir ömür



**Onurani xanımı həyatda görmək, onunla ünsiyyətdə olmaq mənim də arzum idi. Ancaq yalnız fotolarına baxıb, müsahibələrini və onunla görüşə gedənlərin xatirələrini oxuya bilmişəm. Həmişə də damarlarında türk dünyasının böyük fikir adamının, görkəmli aydınının qanını, ürəyində sevgisini, beynində məsləkini daşıyan bir nurani insanın portretini özüm üçün cızmışam: son dərəcə zəki, istedadlı, xeyirxah, mərhəmətli...**

Keçən həftə "Azərbaycanın böyük mütəfəkkiri Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsar İstanbulda vəfat edib" xəbəri yayılanda da haqqında "Turanın sonbeşiyi", "Əli bəy Hüseynzadənin son yadigarı"- deyə xatirələr dilə gəldi. Feyzavər Alpsar 101 yaşında vəfat etdi. Türk dünyasında milli özünüdərkin və milli istiqlal düçüncəsinin müəlliflərindən birinin son yadigarı həyatla vidalaşdı. Bəli, Feyzavər xanım bütün şüurlu ömrü boyu öz qələmi və fəaliyyəti ilə ümumtürk mənəvi dəyərlərini tədqiq və təbliğ edən Əli bəy Hüseynzadənin varisi idi. Özü ilə birgə görkəmli fikir adamı və canlı ünsiyyətdə olduğu dövrünün aydınları, türk dünyasına türkçülük, islam və maarifçilik düsturunu bəxş edən atasının həmfikirləri ilə bağlı nə qədər xatirələri də apardı...

Feyzavər xanımın sinəsini Azərbaycanın "Dostluq" ordeni və "Cümhuriyyətin 100 illiyi" medalı bəzəyirdi. Prezident İlham Əliyev də Feyzavər xanımın vəfatından kədərləndiyini bildirdi: "Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi, yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfat etməsi xəbərini böyük kədər hissi ilə qarşıladım. Feyzavər Turan böyük mütəfəkkirin ədəbi-irsinin qorunub saxlanmasında mühüm rol oynamışdır".

### KİTAB OXUMAĞI ONDAN ÖYRƏNDİM

Feyzavər Alpsar İstanbulun Şişli səmtində yaşayırdı. O, Əli bəy Hüseynzadənin üçüncü övladı idi. 1919-cu ildə İstanbul şəhərində anadan olmuşdu. Ailəsi ilə burgə qədim şəhərin bir neçə məhəllələsində yaşamışdı. Hər yaşadığı ev də, öz görkəmli qonaqlarının zəngin xatirələri ilə yaddaşına hopmuşdu. Elə xatirələr ki, sonradan təkcə özü üçün yox, bütün türk dünyası üçün qiymətli mənbəyə çevrildi. Feyzavər xanımın uşaqlıq yaddaşında kimlər yox idi: böyük Atatürk, Əhməd bəy Ağaoğlu... Məhz bu görkəmli şəxsiyyətlər balaca Feyzavərin başına sığal çəkmişdi. "Atam mənə çox dəyər verirdi. Qəhvəni çox sevirdi, kiçik bir qəhvə şkafı vardı. Torpaqla işləməyi də çox sevirdi, bağçada çox zaman keçirirdi. Yadımdadır, bir dəfə daş daşıyırdı, mən kömək etmək istədim "aman, sən toxunma" deyərək, məni qoymadı. İtimiz var idi, tez-tez ağaca dırmanırdı, atamla bərabər onu aşağı endirirdik. O, mənə heç bir qadağa qoymurdu. Ürəyim nə istəyirdi onu da edirdim. Onun sayəsində çox kitab oxumuşam, durmadan kitab oxumağı ondan öyrəndim. Ancaq indi "hansı kitabları oxuyubsunuz" sualını versəniz bilmərəm. Atam İstanbul Universitetinin Tibb fakültəsində həkim işləyirdi, Bəyazıtda. Məni də bəzən özü ilə xəstəxanaya aparırdı. O vaxtlar uşaq idim. Oraya gəmi ilə gedirdik, insanlar keçsin deyə, sırada gözləyirdik. O mənzərə gözlərimin önündədir. O vaxtlar, Mustafa Kamal Atatürk illəri idi"- deyə müsahibələrinin birində xatırlamışdı.

### "GÖZƏL BİR SƏRGİ AÇACAĞAM..."

Əli bəy Hüseynzadə peşəkar rəssam olduğundan, qızı da kiçik yaşlarından bu sənətə maraq göstərib. İstanbulda Memar Sinan adına Gözəl Sənətlər Universitetini bitirən Feyzavər xanımın Türkiyədə dəfələrlə sərgiləri keçirilib. 2015-ci ilin aprelində İstanbul Aydın Universitetində, həmin ilin dekabrında İstanbulun Əl Sənətləri Qalereyasında təşkil olunan rəsm sərgiləri böyük maraqla qarşılanıb. Qocalsa da, çalışmaq, yaratmaq həvəsi onu tərk etmirdi. Yenə də dünyasını köçürdüyü əsərlərinin sərgilənəcəyi günü gözləyirdi. "Son çəkdiyim əsərlərdən gözəl bir sərgi açacağam"- deyə arzu ilə yaşayırdı. Müsahibələrində "Boş durmaq heç də yaxşı bir şey deyil. Durmadan çalışmaq lazımdır. Məslək sahibi olmaq mütləqdir. Oxumaq, yazmaq çox vacibdir. Mədəniyyət sahibi olmaq, kübar olmaq çox vacibdir və bir də insanlara əl tutmaq vacibdir. Mərhəmətli olmaq, yaxşılıq etmək lazımdır. İnsan həyatda bu keyfiyyətləri ilə insan olur. Mən kitab oxumağı, rəsm çəkməyi çox sevirəm, rəsm mənim həyatımdır. Bir də, insanlara kömək etməyi çox sevirəm" deyirdi. Onun dilindən süzülən bu sözlər təsadüfi deyildi. Valideynlərindən irsən keçən xeyirxahlığın təcəssümü idi.

Feyzavər xanım gözəl həyat yaşamışdı. Xatirələrinə söykənib yaşadığı vaxtlar, köhnə fotoşəkillər kimi yaddaşını da ara-sıra vərəqləyərdi: "Çox gözəl bir həyat yaşadım"- deyə ona baş çəkməyə gələnlərə olub-keçənləri



İstanbul, 2013-cü il, "Cavid" konfransından sonra verilən ziyafətdə

nağıl kimi danışardı. Amma bu nağılda hər şey həqiqət idi: "Uşaqlıq xatirələrim o qədər çoxdur ki, hansından danışım, bilmirəm. Unuduram çox şeyi..."- deyə yaddaşından şikayətlənirdi: "Hər şey çox gözəl idi, qardaşım da, bacım da evlənmişdi. Atam vəfat edəndən sonra hər şey dəyişdi, mən evləndim və həyat belə qarmaqarışıq davam etdi".

### TƏSƏLLİNİ ONDA TAPIRAM Kİ...

Feyzavər xanımın yaddaşında cild-cild kitabların mövzusu ola biləcək xatirələr vardı. Yaddaşı pozulduğundan onların çoxunu unutmuşdu. Amma Azərbaycandan ziyarətinə gedənlər onunla görüşə bildikləri, zamanında xatirələrini dinlədikləri üçün özlərini xoşbəxt sayırlar.

**"Ədəbiyyat qəzeti"nin baş redaktoru, Əli bəy Hüseynzadə irsinin araşdırıcısı Azər Turan** xatırlayır: "Feyzavər xanımla söhbətlərimizdən birində ondan Əli bəy Hüseynzadənin dəfn mərasimi barədə soruşmuşdum: "Cənazə törəninə çoxmu adam qatıldı?" sualına "Babam, həftə sonu vəfat etdi. Hər yerdə tətildi. Tətilə rast gəldiyi üçün universitetin xəbəri olmadı" cavabını vermişdi. Qəribədir, indi də Feyzavər xanımın dəfni yenə tətilə - bu dəfə karantin dövrünə düşdü. Feyzavər Alpsarın dəfnində 4-5 adam iştirak etdi. Zincirlikuyu məzarlığında ərinin - Mehmet Ali Alpsarın yanında, bacısı Saida Santurun qonşuluğunda dəfn edildi.

Feyzavər xanımla çox görüşlərimiz olub - İstanbulda Şişli səmtindəki evində, Qaracəhməddə Əli bəy Hüseynzadənin məzarının ziyarətində... Bir yerdə İstanbuldan Ankaraya səfər etmişik...

Son söhbətimiz isə 2018-ci il martın 17-də oldu. Əli bəy Hüseynzadənin dünyasını dəyişdiyi gün Feyzavər Turan Alpsar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilmişdi. Bu xəbərin sevincini bölüşmək üçün ona zəng vurdum. Təvazökarlıqla "mən nə etdim ki?" dedi: "Sağ olsun, sayın Əliyev, bunu Türk Kültürünün böyük mütəfəkkiri atam iücün sevinçlə qarşılayıram".

Feyzavər xanım hər zaman körpə saflığı ilə yaşadı. Onu da deyim ki, sıradan bir rəssam deyildi. "Evrendə Şahməran" silsiləsindən çəkdiyi rəsmlər bunu deməyə tam əsas verir. Türkiyədə bir rəssam olaraq gec tanınmasının səbəbi də geniş bir söhbətin mövzusudur. Poeziyaya həddsiz aludəliyi vardı. Nazim Hikmət ən çox sevdiyi və oxuduğu şair idi.

11 il əvvəl Salyandan Əli bəy Hüseynzadənin doğulduğu Bərəüstü məhəlləsindən apardığım torpağı Feyzavər xanımla birgə Qaracəhməd məzarlığında atasının məzarına səpdiyimiz anlar, ömrümün ən gözəl və unudulmaz anları oldu.

Bir özəlliyi isə fövqəladə yaddaşa sahib olmasıydı. Əfsus ki, ömrünün sonlarında hafizəsini itirdi... Təsəllini onda tapıram ki, 2008-ci ildən başlayaraq, müxtəlif görüşlərimizdə Feyzavər xanımın yaddaşındakıları lentə alıb yazıya köçürə bildim".

### "MƏNİM ATAM HEÇ ZAMAN ÖLMƏDİ Kİ..."

"2017-ci ildə İstanbulda Əli bəy Hüseynzadənin oğlu, rəssam Səlim Turanla bağlı sərgi keçirildi"- deyə **araşdırmaçı jurnalist Dilqəm Əhməd** xatırlayır: "Sərgini digər mühacir Əhməd Cəfəroğlunun qızı, Sakıp Sabancı muzeyinin direktoru Nazan Ölçer xanım təşkil etmişdi. Sərginin konfrans hissəsində məşhur tarixçi İlbər Ortaylı da çıxış etdi. Sərgiyə, səhhətindəki problemlərə baxmayaraq, Səlim bəyin bacısı Feyzavər xanım da gəlmişdi. Ordakı azərbaycanlılar bir anda onun başına toplaşdı. Hər kəs toxunmaq, söhbət etmək istəyirdi. Amma yaşına və səhhətinə görə baxıcısı narahat etməməyimizi istədi. Mənə qısa danışmaq qismət oldu. Dedim ki, Əli bəyin bir əlyazması mənim arxivimdədir: Bakıdan İstanbula göndərdiyi məktub. Buna sevindi. Əli bəyin Azərbaycan üçün önəmli şəxs olduğunu, sevildiyini, əsərlərinin nəşr edildiyini söylədim. Çox duyğulandı və dedi ki, mənim atam heç zaman ölmədi ki... Bir neçə şəkil çəkdirdim. Daha sonra professor İbrahim Yıldırımdan xahiş etdim ki, Feyzavər xanımı evində ziyarət etmək istəyirəm. İbrahim bəy vəziyyəti öyrənməq üçün əvvəlcə özü getdi. Amma məlumat verdi ki, artıq xəstəliyi ağırlaşıb, heç kimi tanımır. Təəssüf ki, geniş söhbət imkanım olmadı".

### ATAMIN ƏŞYALARI VƏTƏNİNDƏDİR

Feyzavər xanım 2017-ci ildə Əli bəy Hüseynzadəyə aid 37 təsviri sənət əsəri, 48 fotoşəkil, 53 şəxsi əşya, 22 orden, medal və nişanlar, eləcə də ipək üzərində çap olunmuş "Həyat" qəzetini Azərbaycan hökumətinə hədiyyə edib. Bu əsərlərin 61 ədədi Azərbaycana gətiriləndən sonra bərpa edilib. Əsərlər hazırda Azərbaycan İstiqlal Muzeyində sərgilənir. "Əvvəllər tərəddüd etdim, ancaq sonra dedim ki, bu əşyalar Azərbaycana getməlidir. Çox xoşbəxtəm, atamın əşyaları onun Vətənində etibarlı əllərdədir. Oradan mənə zəng edib əşyaların artıq muzeydə olduğunu dediklərində, çox həyəcanlandım"- deyə Feyzabər xanım artıq atasının arxivinin vətənində olmasından rahatlıq duyurdu.

Feyzabər Alpar 101 il ömür yaşadı. "Xoşbəxtəm ki, Əli bəy Hüseynzadənin qızı olmuşam, yaxşı ki, məni sevən bu qədər insan var" deməyi haqq edən bir ömür.

**Təranə Məhərrəmova**

